Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın
“Texnologiya və İnnovasiyalar” İşçi Qrupunun tərkibində yaradılan
“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə”
altqrupun iclası

Protokol № 7

Bakı şəhəri *22 oktyabr 2026-cı il*

İştirak edirdilər:

- Rəşad Həsənov – Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini
- Samir Vəliyev – Azərbaycan Respublikası Energetika nazirinin müavini
- Vüsal Şıxəliyev – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri
- Namiq Orucov – “Azərişıq” ASC sədrinin müavini
- Fərid Osmanov – İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri
- Sabit Zeyniyev – “Təmiz Şəhər” ASC İdarə Heyətinin sədr müavini
- Teymur Vəliyev – “Azəriqaz” İstehsalat Birliyinin baş direktorunun kommersiya üzrə müavini
- Qismət Qurbanov – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində rəqəmsallaşma və innovasiyalar idarəsinin rəisi vəzifəsini icra edən
- Mirhəsən Həsənov – Bakı Şəhər İcra Hakimiyyətinin Şəhər təsərrüfatı sektorunun müdiri
- İlkin Hüseynov – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Strateji inkişaf və iqtisadi təhlil şöbəsinin müdiri
- Elvin Məmmədov – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İqtisadi təhlil və statistika sektorunun müdiri
- Rauf Qurbanov – Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiri
- Mahir Hümbətov – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Aparatının Strateji Planlaşdırma və Təhlil şöbəsinin müdiri
- Xalid Xuduzadə – Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Torpaq Məlumatları şöbəsinin müdiri

- Fərid Daşdəmirli – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin direktor müavini, Enerji monitorinqi sektorunun müdiri
- Dürdanə Əhədova – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Rəqəmsal İdarəetmə şöbəsinin Rəqəmsal layihələr sektorunun müdiri
- Anar Şamxalov – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İnformasiya Texnologiyaları şöbəsinin müdiri
- Adil Əkbərov – Azərbaycan Respublikası Prezidentinin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Hüquq şöbəsinin müdir müavini
- Rüfət Atakişiyev – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İnformasiya Texnologiyalarının Təşkili və Tətbiqi idarəsinin rəisinin müavini
- Emin Abdullayev – Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Biznesə xidmətlər departamentinin müdir müavini
- Samid Əliyev – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Hüquqi təminat və təhlil şöbəsinin Hüquqi təminat sektorunun müdiri
- Fəzayıl Süleymanov – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin müşaviri
- Hikmət Həsənov – “Azərişıq” ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin direktoru
- Mircəfər Qubatov – “Azəristiliktəchizat” ASC-nin İnformasiya texnologiyaları, kompüter və elektron xidmətlərin təşkili şöbəsinin rəisi
- Hacı Məmmədov – Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Vahid İnformasiya Sistemi şöbəsinin İnformasiya Texnologiyaları sektorunun baş məsləhətçisi
- Kamran Məmmədov – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin Qaz monitorinqi sektorunun böyük mütəxəssisi
- Vüqar Həşimov – Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin böyük mütəxəssisi
- Elmir Əbdürrəhimov – Daxili İşlər Nazirliyinin Rəqəmsallaşma və innovasiyalar şöbəsinin aparıcı mütəxəssisi
- Sevil Muradova – İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Strateji planlama və portfellərin idarəedilməsi departamentinin mütəxəssisi

İclasın və altqrupun katibi:

Orxan Rəsulov – İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin rəqəmsal inkişaf üzrə eksperti

İclasın gündəliyi:

1. “Vahid Kommunal Xidmətlər” altsisteminin yaradılması və kommunal sahədə rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsi üzrə 2026-cı il üçün Yol Xəritəsinin icra vəziyyətinin müzakirəsi.

Çıxışlar

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirinin müavini **Rəşad Həsənov** mövcud vəziyyət və görülmüş işlər barədə məlumatları iclas iştirakçılarının diqqətinə çatdırdı. O, kommunal xidmət təminatçılarının kommunal məlumatlarının əlaqələndirilmiş şəkildə vahid mərkəzdə birləşdirilməsini nəzərdə tutan "Vahid Kommunal Xidmətlər" altsisteminin (VKXAS) yaradılmasının rəqəmsal hökumət ekosisteminin inkişafı və dövlət xidmətlərində pərakəndəliyin aradan qaldırılması baxımından əhəmiyyətini qeyd etdi.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2025-ci il tarixli 472 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"yə uyğun olaraq sistemin Biznes Tələbləri Sənədinin hazırlandığını və 17 mart 2026-cı il tarixində təsdiq edilmiş Yol Xəritəsi üzrə icra hədəflərinin müəyyənləşdirildiyini bildirdi. Yol Xəritəsi çərçivəsində abonent məlumatlarının dürüstləşdirilməsi, dövlət informasiya sistemləri ilə inteqrasiyanın təmin edilməsi, xidmətlərin "mygov" və "mygov biznes" platformaları üzərindən təqdim olunması, kommunal infrastrukturun birgə planlaşdırılması və "Birgə Planlaşdırma və Tikinti" Platforması – "Bir Dəfə Qazma" sisteminin tətbiqi məsələlərinə toxundu.

Rəşad Həsənov, həmçinin kommunal xidmətlər üzrə abonent məlumatlarının dürüstləşdirilməsi prosesinin yekunlaşdırılmasının, məlumat bazalarının dəqiqliyinin təmin edilməsinin və kommunal sahə üzrə məlumatların "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq "Dövlət məlumat hövzəsi"nə inteqrasiyasının vacibliyini vurğuladı. "Vahid Kommunal Xidmətlər" altsisteminin formalaşdırılması ilə bağlı pilot layihə üzrə işlərin davam etdirilməsinin əhəmiyyətini qeyd etdi.

Daha sonra söz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri **Vüsal Şıxəliyevə** verildi. Vüsal Şıxəliyev görüş iştirakçılarını salamlayaraq "Vahid Kommunal Xidmətlər" altsisteminin yaradılması istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2025-ci il tarixli 472 nömrəli Fərmanının bu sahədə hüquqi çərçivənin möhkəmləndirilməsi və prioritetlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirdi. Həmçinin, altsistemin yaradılmasının ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə uzlaşdığını, qarşıya qoyulmuş öhdəliklərin yerinə yetirilməsi və beynəlxalq reytinqlər üzrə nəticələrin əldə olunması baxımından əhəmiyyətini vurğuladı.

Dünya Bankının "Business Ready" (B-READY) hesabatı üzrə kommunal xidmətlərlə bağlı indikatorun tələblərinə toxunan Vüsal Şıxəliyev kommunal infrastrukturun birgə planlaşdırılması, tikinti və qazıntı işlərinin əlaqələndirilməsi "Birgə Planlaşdırma və Tikinti" Platforması – "Bir Dəfə Qazma" sisteminin tətbiqi və aidiyyəti qurumlar arasında məlumat mübadiləsinin təşkilinin vacibliyini qeyd etdi.

O, "Vahid Kommunal Xidmətlər" altsisteminin yaradılması istiqamətində görülmüş işlər, mövcud vəziyyət və qarşıda duran vəzifələr barədə ətraflı hesabatın hazırlanmasının, hesabatda görülmüş işlərin nəticələrinin, mövcud problemlərin və həlli tələb olunan məsələlərin əks etdirilməsinin vacibliyini qeyd etdi. Həmçinin, 2027-ci il üçün yeni Yol Xəritəsinin hazırlanması zamanı görülmüş işlərin və mövcud vəziyyətin nəzərə alınmasını, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsini, qısamüddətli və uzunmüddətli tədbirlərin ardıcıl şəkildə planlaşdırılmasını təklif etdi. Yol Xəritəsi layihəsinin qısa müddətdə hazırlanaraq Komissiyaya təqdim edilməsinin vacibliyini qeyd etdi.

Söz "Azərişıq" ASC sədrinin müavini **Namiq Orucova** verildi. O, Yol Xəritəsində "Azərişıq" ASC-yə aid tədbirlərin icra vəziyyəti barədə məlumat verdi. O, "Azərişıq" ASC-nin Yol Xəritələri üzrə nəzərdə tutulmuş 22 tədbirdən 10-u üzrə əsas, 4-ü üzrə isə digər icraçı qurum olduğunu qeyd edərək, həmin tədbirlərin icra vəziyyəti barədə hazırlanmış arayışı iclas iştirakçılarının diqqətinə çatdırdı. Həmçinin, əsas icraçı olduğu tədbirlərdən

ikisinin tam icra olunduğunu və əldə edilmiş nəticələr barədə Komissiyaya məlumat təqdim edildiyini bildirdi. FİN, VÖEN və ünvan məlumatlarının dürüstləşdirilməsi ilə bağlı üç tədbirin icrası zamanı inteqrasiya ilə əlaqədar yaranmış problemlər nəzərə alınaraq, həmin tədbirlərin icra müddətinin uzadılması üçün Komissiyaya müraciət edildiyini bildirdi. Hazırda 8 tədbir üzrə icra işlərinin davam etdirildiyini vurğuladı. Yol Xəritəsində "Azərişıq" ASC-nin əsas icraçısı olduğu bəndlər üzrə kommunal xidmətlər sahəsində çevik idarəetmənin təşkili və birgə tikintinin koordinasiyalı həyata keçirilməsi məqsədilə yeni "Birgə Planlaşdırma və Tikinti" Platformasının – "Bir Dəfə Qazma" platformasının yaradılması və platformanın məqsədi, funksional imkanları və üstünlükləri barədə görüş iştirakçılarına məlumat verdi. "Birgə Planlaşdırma və Tikinti" Platforması – "Bir Dəfə Qazma" platforması barədə daha ətraflı məlumat çatdırmaq üçün sözü "Azərişıq" ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin direktoru Hikmət Həsənova verdi.

"Azərişıq" ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin direktoru **Hikmət Həsənov** "Birgə Planlaşdırma və Tikinti" Platformasının – "Bir Dəfə Qazma" platformasının tətbiqi və İnfrastruktur İnformasiya Sisteminin yaradılması barədə təqdimatla çıxış etdi. O bildirdi ki, sistem elektrik dirəkləri, hava və yeraltı kabellər, su və qaz boruları, rabitə xətləri və digər kommunal infrastruktur obyektləri barədə məlumatların vahid rəqəmsal platformada toplanmasına, tikinti və qazıntı işlərinin əlaqələndirilməsinə, təkrar qazıntıların azaldılmasına və infrastrukturun birgə planlaşdırılmasına imkan verir. Təqdimatda beynəlxalq təcrübənin tətbiqi, normativ-hüquqi çərçivənin təkmilləşdirilməsi, icazə proseslərinin sadələşdirilməsi və aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsi məsələləri qeyd olundu. Həmçinin abonent və infrastruktur məlumatlarının rəqəmsallaşdırılması, məlumat sistemləri arasında mübadilənin təmin edilməsi və qazıntı işlərindən əvvəl aidiyyəti qurumların vahid platforma vasitəsilə məlumatlandırılması kimi funksional imkanları görüş iştirakçılarının diqqətinə çatdırdı.

"Azəriqaz" İstehsalat Birliyinin baş direktorunun kommersiya üzrə müavini **Teymur Vəliyev** "Ağıllı Qaz Şəbəkəsi İdarəetmə Sistemi" barədə təqdimatla çıxış etdi. Təqdimatda şəbəkənin real vaxt rejimində izlənilməsi, sayğac göstəricilərinin avtomatik oxunması, məsafədən əməliyyatların aparılması və qaz itkilərinin müəyyənləşdirilməsi imkanları qeyd olundu. Abonent məlumatlarının dürüstləşdirilməsi çərçivəsində FİN və şəxsiyyət vəsiqəsi məlumatlarının yoxlanılması, faktiki ünvanların xəritə və Dövlət Ünvan Reyestri ilə tutuşdurulması, giriş, mərtəbə və mənzil məlumatlarının dəqiqləşdirilməsi barədə məlumat verildi. Ünvanın reyestrdə aşkar edilmədiyi halların ayrıca qeydiyyata alınması, sahə əməkdaşları üçün mobil tətbiqin və regional yoxlama mexanizmlərinin tətbiqi də təqdimatda əks olundu. Bu tədbirlərin abonent məlumatlarının dəqiqliyinin artırılmasına və qazpaylayıcı şəbəkənin daha səmərəli idarə edilməsinə xidmət edəcəyi bildirildi. Sayğac əməliyyatlarının və texniki müayinə proseslərinin vahid rəqəmsal platforma ilə əlaqələndirilməsi, abonent məlumatlarının dövlət informasiya ehtiyatları ilə uyğunluğunun artırılması və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə məlumat mübadiləsi imkanlarının təkmilləşdirilməsi istiqamətləri də diqqətə çatdırıldı. Qeyd olunan tədbirlərin abonent məlumatlarının dəqiqliyinin artırılmasına, qazpaylayıcı şəbəkənin daha səmərəli idarə olunmasına və kommunal xidmətlərin rəqəmsallaşdırılmasının genişləndirilməsinə xidmət etdiyi vurğulandı.

Bununla yanaşı, "mygov" platforması ilə əməkdaşlıq çərçivəsində görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, platformada ad dəyişikliyi, borc arayışının verilməsi, texniki şərtlərin alınması və müayinə aktı ilə bağlı olmaqla 4 xidmət aktivdir. Eyni zamanda, "mygov" platformasında qoşulma sənədinin hazır olması və müayinə proqramı barədə 2 bildiriş xidməti istifadəyə verilmiş, 5 açıq məlumat dəsti Açıq Məlumatlar portalında yerləşdirilmişdir.

Daha sonra söz İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri **Fərid Osmanova** verildi. Fərid Osmanov kommunal xidmətlərlə bağlı vahid informasiya

sisteminin yaradılması istiqamətində görülən işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat verdi. O, bu istiqamətdə fəaliyyətlərin üç əsas tematik komponentdən ibarət olduğunu bildirdi: Kommunal xidmətlər üzrə abonent məlumatlarının dürüstləşdirilməsi, "Vahid Kommunal Xidmətlər" altsisteminin yaradılması və kommunal xidmətlərin "mygov" və "mygov biznes" platformalarına inteqrasiyası. O, həmçinin altsistemin yaradılması çərçivəsində zəruri texniki infrastrukturun qurulması, məlumat bazalarının uyğunlaşdırılması və dövlət informasiya sistemləri ilə inteqrasiyanın təmin edilməsi istiqamətində görülən işlərə toxundu. Yol xəritəsinin müvafiq tədbirləri üzrə məlumatların dürüstləşdirilməsinin və məlumatların dəqiqliyinin artırılmasının, eləcə də kommunal xidmətlərin rəqəmsal platformalar üzərindən təqdim edilməsinin əhəmiyyətini vurğuladı. Fərid Osmanov Sumqayıt şəhəri 6-cı mikrorayon ərazisində abonent məlumatlarının tam dürüstləşdirildiyini və "Vahid Kommunal Xidmətlər" altsistemi üzrə pilot layihənin test rejimində uğurla həyata keçirildiyini bildirdi. Bu uğuru rəhbər tutaraq "Azərişıq" ASC, "Azəriqaz" İB və ADSEA ilə birgə təcrübənin bütün ölkə üzrə aparılmaqda olduğunu bildirdi. Eyni zamanda gündəlik əsasda prosesin mərkəzi izlənilməsini təmin etməkdə qurumların verdiyi töhfələrə görə onlara təşəkkür etdi, data dürüstləşdirməsi üzrə kommunal qurumların statistik göstəriciləri haqda bir sıra məlumatı görüş iştirakçılarının diqqətinə çatdırdı. Xüsusilə hesabat dövründə EHİS üzərindən ƏMDX-in sistemləri ilə inteqrasiya həyata keçirilmişdir ki, bu da kommunal müəssisələrdə ünvan əsaslı məlumatların aktuallığını təmin edir. Aparılan işlərin cari ilin sonuna qədər hədəflənən 90%-ə çatdırılmasının vacibliyini vurğuladı. Paralel olaraq əməkdaşlıq çərçivəsində kommunal xidmətlərin mygov üzərindən göstərilməsi təmin edilməkdədir və mobil tətbiqlərin bağlanılması həyata keçirilmişdir. "Azərişıq" ASC, "Azəriqaz" İB və ADSEA-nın hər biri üzrə dörd xidmətin vətəndaşların istifadəsinə verildiyini, ilin sonunadək xidmətlərin əhatə dairəsinin daha da genişləndirilməsinin və "mygov biznes" platforması üzərindən təqdim edilməsinin hədəfləndiyini bildirdi.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin rəqəmsal inkişaf üzrə eksperti **Orxan Rəsulov** "Vahid Kommunal Xidmətlər" altsisteminin yaradılması, kommunal sahədə rəqəmsal xidmətlərin genişləndirilməsi və 2026-cı il Yol Xəritəsinin icra vəziyyəti barədə təqdimatla çıxış etdi. O bildirdi ki, altsistemin əsas məqsədi kommunal xidmətlər üzrə məlumatların vahid rəqəmsal mühitdə əlaqələndirilməsi, abonent məlumatlarının dürüstləşdirilməsi və xidmətlərin "mygov" platforması üzərindən vahid pəncərə prinsipi ilə təqdim edilməsidir. Təqdimatda FİN və VÖEN məlumatlarının rəsmi ünvan və əmlak reyestrləri ilə əlaqələndirilməsi, elektrik, qaz, su və istilik xidmətləri üzrə abonent məlumatlarının vahid profil əsasında təqdim olunması, eləcə də dövlət informasiya sistemləri ilə məlumat mübadiləsinin təmin edilməsi məsələləri diqqətə çatdırıldı. Həmçinin, əmlakın mülkiyyətçisi dəyişdikdə kommunal məlumatların yenilənməsi, borc və ödəniş məlumatlarının vahid mühitdə göstərilməsi, vətəndaşlara bildirişlərin göndərilməsi və elektron müqavilə mexanizmlərinin tətbiqi nəzərdə tutulan imkanlar sırasında qeyd edildi. Orxan Rəsulov, həmçinin abonent və ünvan məlumatlarının dürüstləşdirilməsi üzrə görülən işlər, Sumqayıt şəhərində həyata keçirilən pilot layihənin nəticələri və kommunal xidmətlərin "mygov" platformasına inteqrasiyası barədə məlumat verdi. Bununla yanaşı, kommunal ödənişlərin vahid interfeys üzərindən həyata keçirilməsi, məlumatların dövlət reyestrlərindəki məlumatlarla üzləşdirilməsi və kommunal infrastrukturun birgə planlaşdırılması istiqamətində nəzərdə tutulan tədbirləri diqqətə çatdırdı. Çıxışda məlumatların mötəbərliyinin artırılmasının, qurumlararası inteqrasiyanın gücləndirilməsinin və Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin əlaqələndirilmiş şəkildə icrasının həyata keçirilməsi üçün növbəti addımlar və təkliflər vurğulandı.

Yol Xəritəsi layihəsinin müzakirəsi zamanı qısamüddətli pilot tədbirlərlə uzunmüddətli sistemli tədbirlərin bir-birindən ayrılması, hər bir tapşırıq üzrə əsas və digər icraçı qurumların, icra müddətlərinin və gözlənilən nəticələrin aydın müəyyənləşdirilməsi

zəruri hesab edildi. Həmçinin kommunal xidmət təminatçıları arasında məlumat mübadiləsinin, hüquqi əsasların və koordinasiyalı tikinti mexanizmlərinin Yol Xəritəsində əhatə olunmasının vacibliyi vurğulandı.

Qərara alındı:

1. Qanunvericiliyin və Dünya Bankının "Business Ready" hesabatı üzrə metodoloji tələblərin yerinə yetirilməsi məqsədilə "Vahid Kommunal Xidmətlər" altsisteminin yaradılması istiqamətində görülmüş işlər, mövcud vəziyyət və qarşıda duran vəzifələr barədə hesabat cari ilin noyabr ayının sonunadək təqdim edilsin. 2027-ci ilin kommunal xidmətlər üzrə tədbirləri əhatə edəcək yeni Yol Xəritəsinin imzalanması üçün təkliflər noyabr ayının sonunadək altqrup üzvləri tərəfindən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinə təqdim edilsin (altqrupun üzvləri).
2. Təqdim olunmuş təkliflər 2026-cı il 10 dekabr tarixinədək İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən ümumiləşdirilsin və 2027-ci il üçün Yol Xəritəsinin layihəsinin hazırlanmasında nəzərə alınsın.
3. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən 2027-ci il üçün Yol Xəritəsinin layihəsi hazırlanaraq təsdiq olunmaq üçün 2027-ci ilin fevral ayının sonunadək Komissiyanın sədri – Azərbaycan Respublikası Baş nazirinin müavininə təqdim edilsin.
4. "Birgə Planlaşdırma və Tikinti" platformasının cari ilin sonunadək real fəaliyyətə başlaması üçün zəruri tədbirlər həyata keçirilsin, bu istiqamətdə aidiyyəti qurumların iştirakı ilə mütəmadi işçi görüşləri keçirilsin və zəruri tədbirlərin əlaqələndirilməsi təmin edilsin (aidiyyəti qurumlar).
5. Kommunal xidmətlər üzrə abonent məlumatlarının dürüstləşdirilməsi prosesi aidiyyəti qurumlar tərəfindən yekunlaşdırılsın, müvafiq məlumat bazalarının dəqiqliyi təmin edilsin (aidiyyəti qurumlar).
6. Dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşan kommunal sahə üzrə məlumatların "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın müvafiq tələbinə uyğun şəkildə "Dövlət məlumat hövzəsi"nə inteqrasiyası təmin edilsin.
7. "Vahid Kommunal Xidmətlər" altsisteminin formalaşdırılması ilə bağlı layihə üzrə işlər 2026-ci il üçün Yol Xəritəsi çərçivəsində görülmüş pilot layihədə işlər və müzakirələrin nəticələri, habelə qəbul edilmiş qərarlar nəzərə alınmaqla davam etdirilsin.

"Texnologiya və innovasiyalar" işçi qrupunun rəhbəri **Rəşad Həsənov**

Altqrupun rəhbəri Fərid Osmanov

Altqrupun katibi Orxan Rəsulov